*2 fevral Azərbaycan Gəncləri Günüdür*

# Gənclər günü qeyd olunub

Qəbələ Rayon Gənclər və İdman İdarəsi 2 fevral Azərbaycan Gəncləri Günü münasibətilə Heydər Əliyev Mərkəzində tədbir keçirmişdir.

Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin büstü önünə tər qərənfillər qoymuşlar. Mərkəzin ekspozisiya zalında davam edən tədbirdə rayonun ictimai-siyasi həyatında fəallıq göstərən gənclər iştirak etmişlər.



Gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov giriş sözü ilə tədbiri açaraq bildirmişdir ki, ictimai-siyasi, mədəni həyatımızda gənclər böyük çəkiyə malikdir. Müstəqil dövlətimizin daha da çiçəklənməsi üçün sağlam, müstəqil düşüncəyə sahib olan, vətənə sadiq gənclər yetişməkdədir. Natiq onu da demişdir ki, düzgün qurulmuş ideya-siyasi işin nəticəsidir ki, bu gün Azərbaycan gəncliyi ulu öndər Heydər Əliyevin siyasətini ardıcıl şəkildə həyata keçirən Prezident İlham Əliyevin ətrafında birləşərək dövlətimizin tərəqqisi naminə öz bacarıqlarını əsirgəmirlər.

Sonra gənclər və idman idarəsinin rəis müavini Müşviq Abbasov 2018-ci ildə görülən işlər və qarşıda duran məsələlər barədə danışmışdır.

Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova çıxış edərək Azərbaycanda dövlət gənclər siyasətinin əsasının ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu bildirmişdir. Ətayə Osmanova çıxışında möhtərəm Prezidentimizin Azərbaycan gəncliyinə göstərdiyi diqqət və qayğıdan bəhs etmiş, rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevin təbrikini gənclərə çatdırmışdır.

Tədbirdə Heydər Əliyev Mərkəzinin əməkdaşı Aygün Məmmədova, Qəbələ Mədəniyyət Mərkəzinin işçisi Səbinə Sabirli, uşaq-gənclər idman-şahmat məktəbinin direktoru Ədalət Əliyev çıxış edərək ulu öndərin Azərbaycan gəncliyinə göstərmiş olduğu diqqət və qayğıdan, bu siyasətin cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən və çalışdıqları sahədə gənclərlə əlaqədar görülən işlərdən danışmışlar.

Tədbirin sonunda 2018-ci ildə müxtəlif sahələr üzrə nailiyyət qazanmış bir qrup fəal gənclər Fəxri fərman və xatirə hədiyyələri ilə mükafatlandırılmışlar.

**Məhəmmədəli SƏFƏRÇİNOV,**
**gənclər və idman idarəsinin baş məsləhətçisi.**
**Səhrab Umuyev (foto).**

## QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2019-cu İLİN FEVRAL AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ GÖRÜŞ-QƏBULLARIN QRAFİKİ

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Hacıalılı kəndi | 05.02.2019 | Kənd məktəbi, saat $15^{00}$ |
| Kiçik Əmili kəndi | 13.02.2019 | Kənd məktəbi, saat $15^{00}$ |
| Qəmərvan kəndi | 20.02.2019 | Kənd məktəbi, saat $15^{00}$ |
| Mirzəbəyli kəndi | 27.02.2019 | Kənd məktəbi, saat $15^{00}$ |

Qəbula təhsil, səhiyyə müəssisələrinin, hüquq mühafizə orqanlarının, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol-istismar, baytarlıq, qaz-istismar, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri dəvət olunurlar.

# Nəzarətçi müəllimlər üçün seminar-məşğələlər keçirilib

Dövlət İmtahan Mərkəzi regional bölməsinin əməkdaşları tərəfindən imtahanlara cəlb ediləcək nəzarətçi müəllimlər üçün seminar məşğələlər keçirilib.

Seminar məşğələlərdə Qəbələ rayonundan 60 nəfər müəllim iştirak edib.

Seminar-məşğələlərdə ali təhsil müəssisələrinə qəbul imtahanlarının yeni modelindən irəli gələrək istifadə olunacaq cavab vərəqlərinin doldurulma qaydası, eləcə də xarici dil fənni üzrə imtahanda dinləyib-anlama bacarıqlarının yoxlanılması üçün istifadə olunacaq dinləmə qurğusundan istifadə qaydaları nəzarətçilərin nəzərinə çatdırılıb.

Nəzarətçilərin imtahan prosesi ilə əyani surətdə tanış olması məqsədilə imtahan texnologiyasına aid film nümayiş etdirilib.

**"Qəbələ"**

# Milli Oftalmologiya Mərkəzi Qəbələdə

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Səyyar Klinikası növbəti tibbi aksiyasını yanvarın 25-26-da Qəbələ şəhərində keçirib.



"Görmə 2020" proqramı çərçivəsində keçirilən aksiyada məqsəd pasientləri müayinə-müalicə etmək, refraksiya anomaliyalarını aşkarlamaq, onların səhhətləri ilə bağlı olan problemlərin həll olunmasına kömək göstərmək, cərrahi əməliyyat etməkdən ibarət olub.

Milli Oftalmologiya Mərkəzinin həkimləri iki gün ərzində 78 nəfər pasienti müayinə edib. Onlardan 11 nəfəri elə burada kataraktadan əməliyyat olunub. Bir neçə pasientə əlavə müayinə üçün Milli Oftalmologiya Mərkəzinə müraciət etmək məsləhət bilinib. Digər pasientlərə isə müalicə proseduru təyin edilib.

**Səfa ASLANOV,**
**İlkin Vəlizadə (foto),**
**"Qəbələ"**

# Maarifləndirmə tədbiri

Yanvarın 29-da Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində FHN-nin Şimal-qərb Regional Mərkəzi ilə birgə "Fövqəladə hallarda davranış qaydaları" mövzusunda maarifləndirici tədbir keçirilmişdir.

Tədbirin keçirilməsində əsas məqsəd təbii fəlakətlər, texnogen qəzalar və yanğın hadisələri zamanı adamların necə davranmaları barədə maarifləndirilməsi, eyni zamanda yanğın təhlükəsizliyi qaydalarına əməl edilməsinin vacibliyinə dair təlimatların verilməsi olmuşdur.

Toplantını giriş sözü ilə peşə təhsil mərkəzinin direktoru Azad Məmmədov açaraq, tədbirin məqsədi barədə iştirakçılara ətraflı məlumat vermişdir.

Daha sonra FHN-nin Şimal-qərb Regional Mərkəzinin əməkdaşları tərəfindən "Zəlzələ", "Dəm qazı", "Məişətdə yanğın zamanı davranış qaydaları", "Odsöndürücü balondan istifadə qaydaları", "Sel və daşqın", "Torpağın sürüşməsi", "Nəqliyyat qəzaları" və "112 qaynar xətti" mövzularında məruzələr tədbir iştirakçılarının nəzərinə çatdırılmış, müvafiq videoçarxlar nümayiş etdirilmişdir.



Tədbirdə FHN-nin Şimal-qərb Regional Mərkəzinin baş məsləhətçisi Natiq Rüstəmov, daxili xidmət leytenantı Amil Hümbətli və Dövlət yanğın nəzarəti idarəsinin inspektoru Amal Babayev iştirak etmişlər.

**"Qəbələ"**

# Yeni məktəb binaları tikilir

Vəndam qəsəbəsində 2 nömrəli tam orta məktəb üçün 360 şagird yerlik yeni binanın tikintisinə başlanılıb. Təhsil Nazirliyinin sifarişi ilə dövlət vəsaiti hesabına inşa edilən yeni məktəb binasının bu ilin sonunadək istifadəyə verilməsi nəzərdə tutulur.



Bundan əlavə, hazırda rayonun Qaradeyin kəndində tam orta məktəb üçün 80, Şəfili kəndində isə ibtidai məktəb üçün 20 şagird yerlik modul tipli binalar quraşdırılır. Hər iki məktəb binası tezliklə şagirdlərin istifadəsinə veriləcək.

Təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə son iki ildə rayonun Seyidqışlaq, Cığatelli, Laza və Zərgərli kəndlərində də modul tipli məktəb binaları quraşdırılıb.

**"Qəbələ"**

# Kosmik aparat asteroidə endiriləcək

Yaponiyanın "Hayabusa-2" kosmik aparatı fevralda Ryuqu asteroidinə enməyə çalışacaq.



AZƏRTAC xəbər verir ki, bu barədə məlumat Yaponiyanın Aerokosmik Məkanın Tədqiqi Agentliyi (JAXA) yayıb.

JAXA-nın nümayəndələrinin bildirdiyinə görə, onlar zondun fevralın 18-də başlayacaq həftə ərzində asteroidə enməsinə çalışacaqlar.

Xatırladaq ki, kosmik aparat Ryuqu asteroidinə dörd il bundan əvvəl göndərilib. Həmin aparat Yerdən 300 milyon kilometr məsafədə yerləşən hədəfə ötən ilin iyununda çatıb. Əvvəlcə zondun ötən ilin oktyabrında asteroidə enməsi planlaşdırılırdı, lakin eniş ərazisində qayaların aşkar edilməsi əməliyyatın təxirə salınmasına səbəb olmuşdu.

Agentliyin bildirildiyinə görə, hazırda aparatın enişi üçün iki yer nəzərdən keçirilir. Bunların hər ikisində 60 santimetrdən hündür daş yoxdur.